4 iyul 2018-ci il, çərşənbə XALQ QƏZETİ

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 283** **Bakı şəhəri, 2 iyul 2018-ci il**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; 2016, № 3, maddə 584, № 5, maddə 957, № 8, maddə 1428, № 11, maddə 1978) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** "II. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin törəmə hüquqi şəxsləri" bölməsinə aşağıdakı məzmunda 5-1-ci, 5-2-ci və 5-3-cü hissələr əlavə edilsin:

"5-1. "Yaxt Klub" Məhdud Məsuliyyətli Cəmiyyəti;

5-2. "Dənizçilər poliklinikası" Məhdud Məsuliyyətli Cəmiyyəti;

5-3. "Dənizçi təmir-tikinti" Məhdud Məsuliyyətli Cəmiyyəti;".

**2.** "III. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyində olan hüquqi şəxs statusuna malik olmayan təşkilatlar (idarələr)" bölməsinin 4-cü hissəsinə "Təmiri" sözündən sonra "və Tikintisi" sözləri əlavə edilsin və həmin bölmənin 6-cı və 8-ci hissələri ləğv edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***